# P O D R A T  M Ü Q A V İ L Ə S İ  № __________

**Bakı şəhəri** ____________**-ci il**

Bir tərəfdən bundan sonra, “**Sifarişçi**” adlandırılacaq, Azərbaycan Respublikası vətəndaşı, fiziki şəxs ______________ (VÖEN: ______________, ŞV AZE/AA №______________, FİN: ______________) və digər tərəfdən bundan sonra “**Podratçı**” adlandırılacaq, Azərbaycan Respublikası vətəndaşı, fiziki şəxs ______________ (VÖEN: ______________, ŞV AZE/AA №______________, FİN: ______________), bundan sonra ayrılıqda “Tərəf”, birlikdə “Tərəflər” adlanaraq, bu podrat müqaviləsini (bundan sonra “Müqavilə” adlandırılacaq) aşağıdakı şərtlərlə bağladılar:

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1 Podratçı Sifarişçinin ərazisində [*zəhmət olmasa, tikinti obyektinin adını qeyd edin*] tikintisi xidmətlərini (bundan sonra “Xidmətlər” adlandırılacaqdır) Sifarişçinin sifarişinə uyğun olaraq göstərməyi, Sifarişçi isə bunun əvəzində müəyyən edilmiş xidmət haqqını ödəməyi öhdəsinə götürür.

## 2. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

2.1. Podratçının hüquqları:

- Tam və keyfiyyətli şəkildə göstərilmiş Xidmətlərə görə Sifarişçidən ödənilməli olan məbləği tələb etmək;
- Bu Müqavilə və qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlar.

2.2. Podratçının vəzifələri:

- Xidmətləri ___ gün ərzində icra etmək;
- Sifarişçiyə Xidmətləri yüksək səviyyədə və peşəkar qaydada icra etmək, o cümlədən qarşılıqlı razılıqla müəyyən olunmuş vaxtda təhvil vermək;
- Xidmətin göstərilməsi ilə əlaqədar Sifarişçinin sorğusu olarsa, ona lazımi və dolğun məlumat vermək;
- Xidmətlərin keyfiyyətinə nəzarət etmək;
- Bu Müqavilə üzrə razılaşdırılmış qiymətə və müddətdə Xidmətləri başa çatdırıb, Sifarişçiyə təhvil vermək;
- Xidmətlərin keyfiyyətinə belə Xidmətlər tam şəkildə yerinə yetirildikdən və Sifarişçiyə təhvil verildikdən sonra ___ il müddətində zəmanət vermək;
- Sifarişçini tikinti ilə bağlı olan və lazımi bütün layihə sənədləri və digər icazə sənədləri ilə təmin etmək;
- Lazımi material, konstruksiya, hissə, komplektləşdirmə məmulatları və inşaat texnikasının Xidmətlərin göstəriləcəyi tikinti zonasına gətirilməsini təmin etmək;
- Ətraf mühitinin mühafizəsi və yanğına qarşı tədbirlərin həyata keçirilməsini, inşaat meydançası və onun ətrafının təmizliyini təmin etmək;
- Xidmətlərin icrasında təhlükəsizlik tədbirlərini təmin etmək;
- Tikinti zonasına gətirilmiş yük və avadanlıqların boşaldılması, qəbulu, saxlanması və qorunmasını təmin etmək, həmçinin ehtiyac yarandığı təqdirdə bu məqsədlə müvəqqəti bina və qurğuların tikintisini təşkil etmək;
- Müqavilə ilə müəyyən edilmiş zəmanət müddəti ərzində hər hansı qüsur və ya çatışmazlıq aşkar edildikdə, belə qüsur və ya çatışmazlıqları dərhal öz hesabına aradan qaldırmaq, belə qüsurun nəticəsində Sifarişçiyə dəymiş zərərin əvəzini ödəmək və üçüncü şəxslər qarşısında məsuliyyət daşımaq;
- Xidmətlərin icra olunması üçün Sifarişçi tərəfindən Podratçının istifadəsinə verilmiş əmlaka zərər vurmamaq, Xidmətin göstərilməsi başa çatdıqda Sifarişçiyə qaytarmaq;

Doc-Shop

- Xidmətlərin icrası zamanı özünün (işçilərinin, yaxud iş görülməsi üçün muzdla çalışdırdığı şəxslərin) təqsiri səbəbindən Sifarişçiyə və ya üçüncü şəxslərə vurulmuş zərərə görə Sifarişçi və belə üçüncü şəxslər qarşısında müstəqil məsuliyyət daşımaq;
- Xidmətlərə görə dövlət tərəfindən verilən bütün icazə və lisenziyaları almaq, həmçinin qanunvericiliklə tələb olunan bütün sənədləri (cizgilər (çertyojlar), smetalar, cədvəllər, müayinə aktları, protokollar, işçi sənədləri də daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq) təmin edərək Sifarişçiyə təhvil vermək;
- Qanunvericiliklə tələb olunduğu halda, tikinti aparılacaq sahə üçün (tikintiyə icazə) və tikinti obyektinin istismarına icazə üçün müvafiq dövlət qurumlarına müraciət etmək və tələb olunan bu sənədləri əldə etmək;
- Tikinti zonasında mövcud olan alt və üst qurğularının (su və kanalizasiya borularının, elektrik və telefon məftillərinin, dirəklərin və s.) mühafizəsi üçün bütün lazımi tədbirləri görmək;
- Bu Müqavilə və Qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklər.

2.3. Sifarişçinin hüquqları:

- Xidmətlərin göstərilməsinə nəzarət etmək;
- Xidmətlərin göstərilməsi nəticəsində bu Müqavilə ilə müəyyən edilmiş zəmanət müddəti ərzində hər hansı qüsur və ya çatışmazlıq aşkar edildikdə, belə qüsurun Podratçının hesabına aradan qaldırılmasını, Sifarişçiyə dəymiş zərərin əvəzinin ödənilməsini və üçüncü şəxslər qarşısında məsuliyyət daşımasını Podratçıdan tələb etmək;
- bu Müqavilə və Qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlar.

2.4. Sifarişçinin vəzifələri:

- Bu Müqavilənin şərtlərinə müvafiq olan məbləğdə və müddətdə yerinə yetirilmiş işlərə görə xidmət haqqını ödəmək;
- Xidmətlərin icra olunması üçün tələb olunan şəraiti yaratmaq;
- Xidmətləri Podratçı tərəfindən vaxtında və tam keyfiyyətlə yerinə yetirildikdən sonra təhvil almaq;
- Bu Müqavilə və Qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklər.

## 3. XİDMƏTLƏRİN DƏYƏRİ VƏ ÖDƏNİLMƏ QAYDASI

3.1. Podratçı tərəfindən göstərilən Xidmətlərin dəyəri ____________ AZN təşkil edir (ƏDV daxil).

3.2. Bu Müqavilənin 3.1-ci bəndində göstərilən xidmət haqqının __%-i əvvəlcədən ödənilmək şərti ilə, qalan __%-i Xidmətlər tam şəkildə yerinə yetirildikdən və Tərəflər arasında təhvil-təslim aktı imzalandıqdan sonra təqdim olunan hesab-faktura əsasında Sifarişçi tərəfindən ödəniləcəkdir.

3.3. Bu Müqavilə üzrə hesablaşmalar nağd və ya bank hesabına köçürmə yolu ilə həyata keçirilir.

3.4. Tərəflərin hər biri xidmət həyata keçirdiyi bankda bütün bank komissiyaları və digər ödənişlər üzrə xərcləri müstəqil şəkildə ödəyir.

## 4. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ XİTAMI

4.1. Bu Müqavilə imzalandığı gündən qüvvəyə minir və Tərəflər öz öhdəliklərini tam şəkildə yerinə yetirənədək qüvvədədir.

4.2. Tərəflərdən hər hansı biri 15 (on beş) təqvim günü əvvəldən yazılı surətdə xəbərdarlıq etməklə Müqaviləyə xitam verə bilər.

4.3. Tərəflər aşağıdakı hallar baş verdikdə Müqavilənin yerinə yetirilməsindən (tamamilə və ya qismən) birtərəfli qaydada dərhal imtina edilməsinə razılaşırlar:

- Xidmətlərin Podratçı tərəfindən təkrar (iki və ya daha çox) qeyri-kafi keyfiyyətdə göstərilməsi;
- Podratçının xidməti göstərməsində sistematik (iki və ya daha çox) gecikməsi.

4.4. Müqaviləyə xitam verilməsi Tərəfləri Müqavilə üzrə icra edilməmiş və ya lazımınca icra olunmamış öhdəliklərinin icrasından azad etmir.

Doc-shop

## 5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

5.1. Tərəflər bu Müqavilə üzrə öhdəlikləri tam və ya qismən yerinə yetirmədikdə Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

5.2. Podratçı bu Müqavilə üzrə göstərdiyi Xidmətlərlə bağlı yaranmış qüsur və nasazlıqları, aşkar olunduğu andan etibarən ən gec 3 (üç) təqvim günü ərzində öz hesabına aradan qaldırır.

## 6. FORS-MAJOR

6.1. Qarşısıalınmaz qüvvənin yaratdığı hallar (təbii fəlakətlər, hərbi əməliyyatlar, iqtisadi böhran, devalvasiya, qanunvericilikdə dəyişikliklər və s.) nəticəsində Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi mümkün olmadıqda, Tərəflər onların yerinə yetirilməməsi üçün məsuliyyət daşımırlar o şərtlə ki, belə hallar səlahiyyətli qurumun müvafiq qərarı ilə təsdiqlənmiş olsun və həmin hallar Tərəflərin Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsinə bilavasitə təsir etmiş olsun.

6.2. Qarşısıalınmaz qüvvənin yaratdığı halların təsirinin müddəti ərzində Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi təxirə salınır.

6.3. Qarşısıalınmaz hallara istinad edən tərəf:

qeyd olunan halların yarandığı vaxtdan 10 (on) təqvim günü müddətində digər Tərəfi məsələ ilə bağlı yazılı şəkildə xəbərdar edir və onun tələbinə əsasən səlahiyyətli dövlət orqanı tərəfindən hadisəni təsdiq edən rəsmi sənədi təqdim edir;

Qarşısıalınmaz hallar 2 (iki) aydan çox davam edərsə, istənilən Tərəf bu Müqaviləni məhkəməyə müraciət etmədən, digər Tərəfi Müqavilənin şərtlərinə müvafiq olaraq məlumatlandıraraq xitam verə bilər.

## 7. MÜBAHİSƏLƏRİN HƏLLİ

7.1. Hazırkı müqavilədən irəli gələn, yaxud bu Müqavilədən yaranan bütün mübahisələr Tərəflərin razılığı ilə həll edilir.

7.2. Tərəflər öz aralarında razılığa gələ bilməzlərsə, mübahisəli məsələlərə, məhkəməyə qədər nizamlama (pretenziya) qaydasına riayət edilməsi şərtilə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının müvafiq aidiyyəti olan məhkəmələrində baxılır.

7.3. Bu Müqavilədə nəzərdə tutulmayan münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənəcək və şərh ediləcək.

## 8. MƏXFİLİK

8.1 Tərəflər Müqavilənin qüvvədə olma müddəti ərzində və onun başa çatmasından sonra digər Tərəf barəsində əldə etdiyi konfidensial (məxfi) məlumatı, qarşı Tərəfin yazılı razılığı olmadan və ya qanunvericiliklə nəzərdə tutulan hallar istisna olmaqla, üçüncü tərəfə təqdim etməməli və ya onu yaymamalı, həmçinin digər üsulla bu məlumatlardan istifadə etməməlidir.

8.2 Bu Müqavilənin məqsədlərinə görə konfidensial (məxfi) məlumat dedikdə, bir Tərəfin digər Tərəfə Müqavilənin yerinə yetirilməsi çərçivəsində təqdim etdiyi yazılı və ya elektron daşıyıcıda əks olunan məlumat, o cümlədən Tərəflərin qeydiyyat məlumatları, Müqavilənin bağlanmasından öncə və sonra elektron poçt və digər üsullarla həyata keçirilmiş yazışmalardan və müzakirələrdən əldə edilmiş məlumatlar və qanunvericiliklə müəyyən edilmiş digər məlumatlar (hamıya bəlli olan məlumatlar və təqdim edilməsi qanunla nəzərdə tutulmuş məlumatlar istisna olunur) nəzərdə tutulur.

8.3. Hər hansı bir Tərəfin işçiləri və təchizatçıları tərəfindən hər hansı məxfi məlumatın açıqlanması, həmin Tərəfin bu məxfi məlumatın açıqlanması sayılır və müvafiq Tərəf Azərbaycan Respublikasının qanunvericiliyə uyğun olaraq bu Müqavilənin pozulmasına görə məsuliyyət daşıyır. Bu 8-ci maddə bu Müqavilənin hər hansı bir səbəbdən ləğvindən sonra qüvvəsini qoruyacaqdır.

## 9. DİGƏR MÜDDƏALAR

Doc-shop

9.1. Bu Müqaviləyə edilmiş bütün əlavə və dəyişikliklər müqavilənin tərkib hissəsidir və yalnız yazılı formada tərtib edildikdə və Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalanıb möhürləndikdən sonra qüvvəyə minir.
9.2. Tərəflərin heç biri digər tərəfin əvvəlcədən yazılı razılığı olmadan hazırkı Müqavilə üzrə hüquq və öhdəliklərini hər hansı üçüncü tərəfə ötürə bilməz.
9.3. Hər hansı səbəbdən Müqaviləyə xitam verildiyi halda, Tərəflər qarşılıqlı hesablaşma aparmağı qəbul edirlər.
9.4. Tərəflərin bir-birinə olan rəsmi e-mail üzrə elektron yazışmaları, kağız üzərində bildirişləri, xəbərdarlıqları və ya digər sənədləri rəsmi sənəd hesab olunur və bütün məqsədlər üçün sübut kimi istifadə edilə bilər.
9.5. Müqavilə üzrə bir Tərəfin digər tərəfə ünvanladığı yazılı müraciət və ya tələb müvafiq Tərəfin ünvanına səhv göndərildiyi hal istisna olmaqla, göndərildiyi tarixdən etibarən ən gec 5 (beş) iş günü ərzində göndərilən Tərəfdən alınmış hesab olunacaqdır.
9.6. Hər hansı səbəbə görə bu Müqavilənin istənilən şərti öz hüquqi qüvvəsini itirsə və ya etibarsız hesab olunsa, bu Müqavilənin başqa şərtlərinə təsir etmir.
9.7. Bu müqavilə eyni hüquqi qüvvəyə malik 2 (iki) nüsxədə tərtib olunub və Tərəflərin hər birində 1 (bir) nüsxə saxlanılır.

## 10. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZALARI

**Sifarişçi adından:**

**"_____"MMC/ASC/QSC**

VÖEN:
Ünvan:
Bank:
Bank VÖEN:
Kod:
M/h:
SWIFT BİK:
**H/h:**

**Ad/Soyad:**
Vəzifə:

______________________
M.Y.

**Podratçı adından:**

**"_____"MMC/ASC/QSC**

VÖEN:
Ünvan:
Bank:
Bank VÖEN:
Kod:
M/h:
SWIFT BİK:
**H/h:**

**Ad/Soyad:**
Vəzifə:

______________________
M.Y.

Doc-shop